**İslamova Zəhra Rüstəm qızı**
Bakı Dövlət Universiteti

# RUSİYA KONSULU S.ABRAMOVUN "QEYDLƏR"İ

***Açar sözlər:*** *XVIII əsr, Azərbaycan, Səfəvilər, Rusiya, S.Abramov, rezident*
***Key words:*** *XVIII century, Azerbaijan, Safavid, Russia, S.Abramov, resident*
***Ключевые слова:*** *XVIII век, Азербайджан, Сефевиды, Россия, Абрамов, резидент*

XVIII əsrin ilk yarısı tariximizin mürəkkəb siyasi dövrü olması, Səfəvilərin zəifləyərək tənəzzülə uğraması qonşu dövlətlərin zəngin sərvətli Azərbaycanı öz işğal planlarına daxil etmələrinə və beynəlxalq çəkişmə meydanına çevrilməsinə səbəb oldu. Cənubi Qafqaza göz dikmiş və bu bölgə üçün xüsusi planlar nəzərdə tutan Rusiyanın bu dövrdəki diplomatik fəaliyyəti Azərbaycanın gələcək tarixinə mənfi təsir göstərməyə bilməzdi. Həm Şimal müharibəsi, həm də Osmanlı ilə olan gərgin münasibətlər XVIII əsrin ilk 20 ilində Rusiyaya aktiv fəaliyyət göstərərək Cənubi Qafqaza birbaşa təcavüzə imkanı vermirdi. Bu dövrdə Peterburq sarayının xarici siyasət kursunun Avropaya yönəlməsi Xəzərin və Azərbaycanın unudulması demək deyildi, əksinə təcavüz və sonda işğal üçün yeni imkanlar, yollar axtarılırdı.

Çar I Pyotr dövründə Rusiya hökuməti tərəfindən gələcək işğala zəmin yaratmaq məqsədilə hücum planı hazırlamalı idi. Bunun üçün bölg dəqiqiliyi ilə araşdırılmalı və kəşf edilməli idi. Bu məqsədlə Peterburq hökuməti tərəfindən Səfəvilərin şah sarayına – İsfahana diplomatik missiyalar göndərilirdi. Bu missiyaların əsas məqsədi ilk növbədə hücum planı, bölgənin istilası, əldə edilməsi yolları və işğalı zamanı lazım ola biləcək məlumatlar toplamaq idi. Ümumiyyətlə, Səfəvi dövlətinə səfər etmiş avropalıların məram, məqsədlərindən bəhs edərkən, alman mənşəli, İran Təhsil Nazirliyinin məsləhətçisi H.Haas yazır ki, "Səfəvi dövlətinə təşrif buyurmuş elçilərə gəlincə, onlar Şərqi-Hind Kompaniyasının agentləri kimi siyasi məqsəddən daha çox kommersiya xarakterli missiya həyata keçirirdilər. İrana (Səfəvi dövlətinə - Z.İ.) gələn tacirlərin əksəriyyəti öz təşəbbüsləri ilə gəlir və burada məskunlaşırlar. Nəticə etibarilə İranın şöhrəti o qədər macərasevər və cəlbedici idi ki, onlar bu və ya digər dərəcədə qanuni elçi qismində təşrif buyururdular" [1, 28]. Bunu nəzərə alaraq, qeyd edək ki, Azərbaycana gələn tacir, səfir, elçi və konsullara verilən təlimatların ilk bəndi məhz ticarətin araşdırılması, ticarət əlaqələrinin genişləndirilməsi yolları, ixrac və idxal edilən mallar və tacirlər üzərində nəzarətdən ibarət olurdu. 1720-ci ildə Səfəvi ərazisində Rusiya diplomatik nümayəndəliyi yaradılarkən S.Avramov İsfahana konsul, A.Baskakov isə Şamaxıya vitse-konsul təyin olunarkən Peterburq hökuməti tərəfindən hər iki diplomatik nümayəndəyə verilmiş təlimatda "çarın təbəələrini qorumaq və ticarətlərini yaratmağa hər cür köməklik etmək" göstərişi verilmişdi [6, 1037]. Eyni zamanda, Azərbaycana gələn missiyalara gizli təlimatlar da verilirdi, səfər zamanı yolda gördüyü, eşitdiyi hər bir məlumatın qeyd olunduğu yol gündəliyinin tutulması idi. Azərbaycan tarixinin öyrənilməsi zamanı bu gündəliklərin əhəmiyyəti mühümdür.

Məqalənin tədqiqat obyekti olaraq Rusiyanın İsfahandakı rezidenti Semyon Abramov (1696-1735) müəyyən edilmişdir. 1723-cü ildən kollec katibi olmuş, Həştərxanda mükəlləfiyyətli olmuş, lakin fars dilini mükəmməl bilirdi. Məhz Semyonun fars bilgiləri onun sonrakı taleyini yönləndirmişdir. Diplomat kimi İsfahan sarayında fəaliyyət göstərməyə başladığı ilk gündən Peterburqdan aldığı təlimata əsasən gündəlik tutmuşdur. Bu gündəlikdə S.Abramov öz qeydlərini xronoloji ardıcıllıqla vermiş, hadisələri olduğu kimi, heç bir şərh vermədən yazmışdır. Azərbaycan tarixşünaslığında ilk dəfə tarixçi alim G.Məmmədova öz əsərində [3] S.Avramovun qeydlərindən geniş istifadə etmişdir. Araşdırma zamanı S.Abramovun "qeydlər"inin orijinal variantından istifadə edilmişdir [2; 5]. Bu səbəbdən bu "qeydlər"in mühüm əhəmiyyəti vardır. Belə ki diplomatların əksəriyyəti öz dövlətlərinin maraqlarını ifadə etdiklərinə görə onlar bəzən subyektivliyə yol verir, gördükləri bir hadisəni bütün ölkəyə və ya idarəçilikdə izlədikləri bir halı tam olaraq hakim sülaləyə şamil edirdilər. Onu qeyd edək ki, rezident bir dövlətin kəşfiyyat idarəsinin xarici dövlətdə fəaliyyət göstərən gizli nümayəndəsinə deyilir və səfirdən bir pillə aşağıda olan diplomatik nümayəndəyə deyilir. Semyon Abramovun adı ilk dəfə 1715-1718-ci illərdə Səfəvilərə edilən A.Volınski missiyası ilə bağlı olmuşdur. Belə ki, Pyotrun öz şəxsi təlimatı ilə İsfahana göndərilən elçiliyin rəhbəri, Rusiya ordu polkovniki A.Volınski tərcüməçisindən narazı olduğundan Həştərxanda S.Abramovu öz nümayəndəliyinə qəbul edir. Səfəvi zadəganları ilə danışıqlar zamanı tərcüməçi olaraq S.Abramov özünü müşahidəçi, ünsiyyətcil və lazımi informasiyanı məharətlə əldə edə bilmək qabiliyyətli şəxs kimi göstərə bilmişdir. S.Abramovun bu xüsusiyyətlərini nəzərə alaraq A.Volınski 1717-ci ildə İsfahanı tərk edərkən S.Abramovu Səfəvilərin paytaxtında saxlayır. Onun əsas vəzifəsi ticarətə dair məlumat yığmaq, tacirləri himayə etmək, eyni zamanda Səfəvilərdə baş verən siyasi proseslər haqqında Peterburqu məlumatlandırmaq idi. 1718-ci ildə Peterburqa

geri qayıtmasına baxmayaraq S.Abramov Pyotr tərəfindən İsfahana konsul təyin edilir. Bu dövr ərzində S.Abramov Səfəvilərdə gedən siyasi və sosial prosesləri məktubları vasitəsilə Peterburqa çatdırırdı.

S.Abramovun Pyotrun 1722-ci il Xəzərsahili ərazilərə yürüşü ilə bağlı xüsusi rolunu mütləq qeyd etməliyik. 1721-ci ildə Həştərxana çatan Rusiya çarı S.Abramova təlimat göndərir: konsul Şah Sultan Hüseyni (1694-1722) inandırmalı idi ki, "ruslar işğal üçün deyil, ancaq qiyamçıları cəzalandırmaq üçün gəlirlər. Qiyamçılarla mübarizədə öz köməyini təklif edən Rusiyaya Xəzərsahili torpaqların müəyyən hissəsi verilməli idi" [5]. Lakin S.Abramov yarı yolda əfqanlar tərəfindən İsfahanın işğal olunduğunu və Səfəvi xanədanının əsir düşdüyünü öyrənir, Pyotr tərəfindən verilən şərtli tapşırıq özünü şah elan etmiş Təhmasibə çatdırılır, hətta Abramov Rusiya ilə müqavilə şərtlərini müzakirə etmək üçün elçiliyin göndərilməsinə nail olur. S.Abramov mehmandar İsmayıl bəyin başçılığı ilə Rəştə Səfəvi elçiliyinin gəlişi zamanı Dərbəndin ruslar tərəfindən işğalını öyrənən Şah II Təhmasib elçiliyi geri qaytarmaq üçün çapar göndərir. Bu zaman mürəkkəb siyasi proseslərin düyün nöqtəsinin mərkəzində olan S.Abramov çaparı ələ keçirərək elçiliyin Rusiya hərbi gəmilərində Rəşti tərk etməsinə şərait yaradır. Həmin vaxt qızılbaşların qəzəbinə gəlmək qorxudan konsul özü də Peterburqa qayıdır.

Bundan əlavə Semyon Abramov bir diplomat kimi danışıqlarda mahir siyasətçi kimi özünü göstərmişdir. 1722-ci ilin dekabrında polkovnik Nikolay Mixayloviç Şipovun başçılığı altında Rusiya donanması Xəzərin cənubuna yan alır. Lakin, vəzir Məhəmməd Əli bəy rusların əsl məqsədlərini anlayaraq onları Rəşt vilayətinə buraxmır. Bu zaman konsul S.Abramov işə qarışır, rusların və Şipov donanmasının təhlükəsiz olduğuna və vəziri donanmanı sahilə yan almağa icazə verməyə inandıra bilir. Gördüyümüz kimi, Pyotrun Xəzər yürüşündə mühüm rol oynamış S.Abramov diplomatiya sahəsində də xüsusilə seçilmişdir.

S.Abramovun növbəti diplomatik fəaliyyəti artıq 1726-1729-cu illərə təsadüf edir. O, Şah II Təhmasibin yanında 1726-1729-cu illərdə Rusiya dövlətinin rezidenti vəzifəsində çalışmış, bu zaman ölkədə baş vermiş bütün mühüm hadisələrin şahidi olmuş və bunlar onun gündəliyində öz əksini tapmışdır [4, 89].Əsas məqsəd Səfəvilərlə razılaşmaya nail olmaq idi, lakin bu dəfə uğursuzluqla nəticələnən fəaliyyət Nadir ilə danışıqlar zamanı da davam etmişdir, belə ki, S.Abramovun əsas təlimatı Nadirin osmanlılar ilə danışıqlarını pozmaq idi ki, bu da alınmır.

Azərbaycan tarixi üçün mühüm əhəmiyyəti və XVIII əsrdə regiondakı beynəlxalq siyasi vəziyyətin öyrənilməsində xüsusi çəkisi olan konsulun gündəliyidir. Şah II Təhmasibin (1722-1732) yanında Rusiya dövlətinin xüsusi nümayəndəsi olan Semyon Avramovun "Qeydlər"i [2] Səfəvi dövlətinin hərbi-siyasi durumunun öyrənilməsi baxımından çox mühüm əhəmiyyətə malikdir. S.Avramov öz gündəliyində diplomatik fəaliyyət dövrünə təsadüf edən siyasi, iqtisadi məsələlər, o cümlədən əfqanlar tərəfindən Səfəvi imperiyasının böyük hissəsinin işğalı, bu dövrdə Astrabad hakimi olmuş Fətəli xan Qacarın fəaliyyəti, Nadir xan Əfşarın tarix səhnəsinə çıxması, ümumən qacarların mərkəzi hakimiyyət uğrunda mübarizəsi, Səfəvi dövlətinin son dövrü haqqında dəyərli məlumatlar verilmişdir. Səfəvi sarayında 1726-1729-cu illərdə üç il ərzində daimi olaraq yaşayan S.Avramov qeydlərini günbəgün, hadisələri xarakterizə və təhlillər etmədən qələmə almış, digər mənbələrdən fərqli olaraq daha dəqiq məlumatlar vermişdir.

XVIII əsrin əvvəllərində Səfəvi dövlətində iqtisadi böhranla yanaşı, siyasi tənəzzül prosesi sürətlənmişdi. Səfəvilərin ağır vəziyyətini göstərmək məqsədilə konsul S.Avramov yazırdı ki, "1725-ci ildə əfqanlar tərəfindən ağır məğlubiyyətə uğradılan şahlığa namizəd II Təhmasibin vəziyyəti "müşkül" idi. Demək olar ki, bütün ölkə əfqan və türklər tərəfindən tutulmuş və ya bəzi yerli feodalların və köçəri tayfa başçılarının hakimiyyəti altına düşmüşdü. Demək olar ki, hər yerdə iğtişaş və ara müharibələri hökmranlıq edirdi" [2]. Səfəvilər sülaləsinin iflic vəziyyəti imperiyanın mərkəzi olan Azərbaycanın xarici müdaxiləçilərin işğalı altına düşməsinə səbəb oldu. Əsir düşən Səfəvi xanədanı ölkə ərazisində öz nüfuz və hörmətini itirir. Şah II Təhmasib hər vəchlə siyasi vəziyyəti sabitləşdirməyə çalışsa da, nəticəsiz qalır. Hərəmxana tərbiyəçilərinin himayəsi altında böyüyən və saray əyanlarının təsiri ilə tərbiyə alan Təhmasib digər şahzadələr Sultan Mahmud və Səfi Mirzə kimi zəif iradəli idi. Təhmasibin həlim xasiyyətli və şərab düşgünü olması konsul Avramovun qeydlərində öz əksini tapıb. "Çaxırı mənim üçün saxla, ondan və araqdan çoxlu hazırla" [2]. Şahzadənin daha çox içki tələb etməsi, şüşələrdə saraya araq göndərilməsi, bəzən şahın boş-boş söhbətlərə yol verməsi S.Avramovun qeydlərində dəfələrlə təsadüf olunur. S.Avramovun qeydlərindən belə nəticəyə gəlmək olar ki, şahın yanında üç il ləngiməsinə səbəb məhz rus səfiri tərəfindən şahın şərabla təmin edilməsi olmuşdur. Mehmandarbaşından onu buraxmamağının səbəbini soruşduqda, S.Avramova "Şah araq tələb edir, nə vaxt hazırlasan onda buraxacaqlar" cavabı verilmişdi [2]. Lakin konsulun ləngiməsi təkcə, bununla bağlı deyil, Rusiya diplomatiyası ilə birbaşa əlaqəli idi. Bu dövrdə Rusiya xarici siyasət kursunun cənuba yönəlməsi, Səfəvilərin tənəzzülü və süqutu ilə əlaqədar olaraq bu bölgələrdə, xüsusilə Azərbaycanda siyasi boşluğun yaranması və Peterburqun bundan yararlanmasına şərait yaradılması ilə sıx bağlı idi.

S.Avramovun digər bir qeydi Şah II Təhmasibin siyasi durumunu açıq şəkildə təhlil etməyə imkan verir. "Şah məğlub olub qovulduqdan sonra öz qullarağası (qulam hərbi dəstələrinin başçısı-Z.İ.) və ləşkərbaşını (feodal hərbi dəstəsinin başçısı) kömək istəmək üçün 40 min rubl pulla Barfuruşdan dənizlə türkmənlərin yanına göndərmişdi". Fətəli xan Qacar şahın bu addımını eşidib, hiyləyə əl atır. "Boynunda qılınc və Quranla şahın hüzuruna gəlir". Şahzadə Təhmasib onun təslim olmasına inanır və Astrabada gedir. Burada II Təhmasib şah elan edilsə də, dövlət faktiki olaraq qacarlar tərəfindən idarə edilirdi. S.Avramovun "şahı, əsir (məhbus) kimi gördüm..." sözləri bu faktı bir daha təsdiq edir [4, 90-91]. "Şah öz iradəsi ilə və ya əksinə, Fətəli xana vəkillik vermiş və bütün hakimiyyəti ona həvalə etmişdi" [4, 92]. Maraqlıdır ki, Qızılbaş şahı II Təhmasib hakimiyyətin bərpası üçün sığındığı bir şəxsin əsirinə çevrilmiş, hətta bütün hakimiyyəti ona təslim etmişdi. S.Avramovun qeydləri Səfəvilərin siyasi durumunu və mərkəzi hakimiyyətin acınacaqlı vəziyyətini bir daha sübut edir.

Beləliklə, Rusiyanın digər dövlət nümayəndələri kimi, Semyon Abramovun da tərtib etdiyi gündəlik və qeydlərin XVIII əsrin Azərbaycan tarixinin mürəkkəb səhifələrinin araşdırılmasında xüsusi çəkisi vardır. Semyon Abramovun fəaliyyətini bir diplomat və dövlət xadimi kimi təhlil etdikdə onun kifayət qədər bacarıqlı dövlət nümayəndəsi olduğunu görürük. Lakin, dövrün də mürəkkəbliyini və Rusiya diplomatiyasına qarşı dura biləcək siyasi qüvvələrin bu dövrdə Qızılbaş dövləti ilə birgə tənəzzül etdiyini unutmamalıyıq. Rusiya diplomatiyasının Cənubi Qafqazda XVIII əsrin ilk qərinəsində geniş əl-qol açmasına səbəb məhz Azərbaycan Səfəvi dövlətinin süqutu olmuşdur. Lakin rezidentin gündəliyindən əldə etdiyimiz materialları müqayisəli təhlillər üsulu vasitəsilə araşdırdıqda bu qeydlərin dövrün tarixi gerçəkliyinin əldə edilməsi üçün nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini açıq şəkildə görə bilərik.

### Ədəbiyyat:

1. William S. Haas: Iran. New York: Columbia University Press, 1946. pp. 273.
2. Абрамов С. Дневная записка бывшего в Персии у Шаха Тахмаспба Российского секреетаря Семена Аврамова. // www.vostlit.info
3. Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века). Баку, Элм, 1989, 128 с.
4. Миклухо-Маклай Н.Д. Записки С.Аврамова об Иране как исторический источник // Ученые записки ЛГУ, 1952, №128, 88-103с.
5. Семён Аврамов 1696 - 01.1735 http://www.rusdiplomats.narod.ru/avramov-s.html.
6. Уляницкий В.А. Русскія консульства за границею въ XVIII вѣкъ. Изслѣдование В.А. Уляницкаго. Часть I. Москва: Типография Г.Лисснера и А.Гешеля, 1899, 1552 с.

### Russian consul S.Abramov's "notes"
### Symmary

In the article has been submitted notes of S.Abramov about Azerbaijan history of XVIII century. The consul's diary is great vital for the history of Azerbaijan. "Notes" by Semyon Avramov, the representative of the Russian state in palace of Shah II Tahmasib (1722-1732), is very important for the study of the military-political situation of the Safavid state. S.Avramov included Safavid's political and economic issues, occupation of Afghans, and etc. on his diary. S. Avramov, wrote his notes every day, without characterizing the events, and provided more accurate information than other sources.

### «Заметки» русского консула С.Абрамова
### Резюме

В статье было изучено «заметки» С.Абрамова об истории Азербайджана XVIII века. Дневник консула важен для истории Азербайджана. «Записки» Семена Аврамова, представителя русского государства во дворце шаха II Тахмасиба (1722–1732), очень важны для изучения военно-политической обстановки государства Сефевидов. С.Аврамов включил политические и экономические вопросы Сефевидов, оккупацию афганцев и т.д. в свой дневник. С. Аврамов писал свои заметки каждый день, не охарактеризовав события и предоставляя более точную информацию, чем другие источники.

**Rəyçi: dos. M.Abdullayev**